# Nokia 1600 İstifadəçi Bələdçisi

9255467
**Buraxılış 3**

UYĞUNLUQ BƏYANNAMƏSİ
Biz, NOKİA KORPORASİYASI tam məsuliyyəti ilə bəyan edirik ki, RH-64 məhsulu növbəti Konsul Təlimatlarının müddəaları ilə tam uyğundur: 1999/5/EC.

Uyğunluq Bəyannaməsinini surətini aşağıda göstərilən internet saytında əldə etmək olar:
http://www.nokia.com/phones/declaration_of_conformity/.

CE434

Üstündən xətt çəkilmiş çarxlı zibil qutusu işarəsi onu bildirir ki, Avropa Birliyi daxilində məhsulun istifadə müddəti bitdikdən sonra o ayrıca kolleksiyada saxlanmalıdır. Bu sizin cihazınıza, həmçinin bu rəmzlə nişanlanmış hər hansı bir cihaza aiddir. Bu məhsulları çeşidlənməmiş şəhər tullantıları kimi tullamayın.

Copyright © 2007 Nokia. Bütün hüquqlar mühafizə edilir.

Bu sənəddə göstərilən məlumatın Nokia şirkətinin əvvəlcədən alınmış yazılı razılığı olmadan hər hansı şəkildə müəyyən bir qismi və ya tam təkrar ifadə edilməsi, köçürülməsi, yayılması və ya saxlanılması qadağan edilir.

US Patent No 5818437 and other pending patents. T9 text input software Copyright © 1997-2007. Tegic Communications, Inc. All rights reserved.

Nokia, Nokia Connecting People, Xpress-on Nokia şirkətinin əmtəə nişanları və ya qeydə alınmış əmtəə nişanlarıdır. Burada adları

çəkilən digər məhsul və şirkət adları onların müvafiq sahiblərinin əmtəə nişanları və ya adları ola bilər. Nokia melodiyası Nokia şirkətinin səs nişanıdır.

Nokia sabit inkişaf strategiyasını tətbiq edir. Nokia bu sənəddə göstərilən istənilən məhsula əvvəlcədən xəbərdarlıg etmədən dəyişiklik etmək və ya təkmilləşdirmək hüququna malikdir.

Nokia heç bir halda, səbəbindən asılı olmayaraq, məlumatın və ya gəlirin itirilməsi yaxud hər hansı xüsusi, əhəmiyyətsiz, əhəmiyyətli və ya dolayı zərərlər üçün məsuliyyət daşımır.

Bu sənədin mətni “olduğu kimi” təqdim edilir. Qüvvədə olan qanunvericiliyin tələbləri istisna olmaqla, heç bir aşkar nə də qeyri-aşkar zəmanət, nə də kommersiya dəyərinə malik və müəyyən məqsədə yararlı olan zəmanətlərin də daxil olduğu (lakin bununla məhdudlaşmadığı) nəzərdə tutulan zəmanətlər bu sənədin dürüstlüyü, etibarlılığı və ya məzmununa aid deyil. Nokia bu sənədin istənilən vaxt əvvəlcədən xəbərdarlıq etmədən dəyişdirilməsi və ya istifadədən çıxarılması hüququna malikdir.

Xüsusi məhsulların mövcudluğu regiondan asılı olaraq fərqlənə bilər. Xahiş edirik, Sizə yaxın olan Nokia dileri ilə əlaqə saxlayın.

BU NÜMUNƏ ABŞ VƏ DIGƏR ÖLKƏLƏRDƏN DAŞINMA QANUNLARI VƏ GÖSTƏRIŞLƏRINDƏN ASILI OLAN MƏHSUL, TEXNOLOGIYA VƏ YA QEYRI-ISTEHSAL XIDMƏTLƏRI ILƏ ƏLAQƏDAR MƏLUMATA MALIK OLA BILƏR. QANUNA ZIDD ƏMƏLLƏR QADAĞANDIR.

9255467/ Buraxılış 3

# Mündəricat

**Sizin təhlükəsizliyiniz üçün ........................................ 6**

**Ümumi məlumat.................................................... 12**
Giriş kodları ........................................................................12
Bölünən yaddaş.....................................................................13

**1. Cihazın işə salınması.......................................... 14**
Cihaz necə işə salınmalıdır ...................................................14
SIM kart və batareyanı daxil et ..............................................15
Batareyanın doldurulması......................................................16
Yandırılması və söndürülməsi ...............................................17
Nümayiş versiyası .................................................................18
Gözləmə rejimində qısaldılmış klaviatura kombinasiyası ................18
Klaviaturanı kilidləyin ............................................................19
Bilək qayışı ...........................................................................19

**2. Zəng funksiyaları ............................................... 20**
Zəng edin və zəngə cavab verin............................................20
Səsucaldan...........................................................................21

**3. Mətn yaz............................................................. 22**

**4. Menyu funksiyaları............................................ 24**
Mesajlar ...............................................................................24
Kontaktlar .............................................................................28
Zənglər ................................................................................29

Tənzimləmələr ........................................................................31
Saat ........................................................................................36
Yadasalmalar ..........................................................................37
Əlavə funksiy. ..........................................................................38
SIM xidmətləri ..........................................................................40

**5. Batareya haqqında məlumat ................................ 41**

Batareyanın doldurulması və boşaldılması.....................................41
Nokia batareyasının identifikasiyası qaydaları ...............................43

**6. Aksessuarlar ........................................................ 47**

**Baxım və texniki qulluq................................................ 48**

**Təhlükəsizliklə bağlı əlavə məlumat........................... 50**

# Sizin təhlükəsizliyiniz üçün

Bu sadə göstərişləri oxuyun. Bu göstərişlərə əməl olunmaması təhlükəli və ya qeyri-qanuni ola bilər. Daha ətraflı məlumat üçün istifadəçinin təlimatının təm mətnini oxuyun.



**TELEFONU TƏHLÜKƏSIZ IŞƏ SALIN**
Simsiz telefonların istifadəsi qadağan edilidiyi yerlərdə və ya bunun nəticəsində maneə və ya təhlükə törədilə bilərsə, telefonu işə salmayın.



**İLK NÖVBƏDƏ YOL TƏHLÜKƏSIZLIYI QAYDALARI RIAYƏT OLUNMALIDIR**
Bütün yerli qanunlara riayət edin. Avtomobili idarə edərkən əllərinizi idarə üçün boş saxlayın. Avtomobili idarə edərkən siz ilk növbədə yol təhlükəsizliyi qaydalarını düşünməlisiniz.



**MANEƏ**
Bütün simsiz telefonlar maneələrə həssas ola bilir və bu onların iş keyfiyyətlərinə təsir göstərə bilər.

**XƏSTƏXANALARDA TELEFONU SÖNDÜRÜN**
Bütün məhdudiyyətlərə riayət edin. Telefonu tibb avadanlığının yanında söndürün.

**TƏYYARƏDƏ TELEFONU SÖNDÜRÜN**
Bütün məhdudiyyətlərə riayət edin. Simsiz telefonlar təyyarələrdə maneələrə səbəb ola bilir.

**YANACAQ DOLDURARKƏN TELEFONU SÖNDÜRÜN**
Telefonu yanacaq doldurma stansiyasında istifadə etməyin. Telefonu yanacaq və kimyəvi maddələrin yanında istifadə etməyin.

**PARTLAYIŞ IŞLƏRI APARILARKƏN TELEFONU ISTIFADƏ ETMƏYIN**
Bütün məhdudiyyətlərə riayət edin. Partlayış prosesi zamanı telefonu istifadə etməyin.

**MƏQSƏDƏ MÜVAFIQ ISTIFADƏ EDIN**
Telefondan məhsulun sənədində göstərilən normal vəziyyətdə istifadə edin. Zəruri olmadıqda telefonun antenasına toxunmayın.

**KEYFİYYƏTLİ XİDMƏT**
Yalnız müvafiq ixtisasa malik olan işçilər bu məhsulu quraşdıra və ya təmir edə bilər.

**AKSESUARLAR VƏ BATAREYALAR**
Yalnız təsdiq edilmiş qurğuları və batareyaları istifadə edin. Uyğun olmayan məhsulları qoşmayın.

**SUYA DAVAMLILIQ**
Sizin telefon suya davamlı deyil. Onu quru vəziyyətdə saxlayın.

**REZERV SURƏTLƏR**
Telefonun yaddaşında saxladığınız bütün zəruri məlumatın rezerv surətlərini çıxarmağı və ya yazılı qeyd etməyi unutmayın.

**DİGƏR CİHAZLARA QOŞULMASI**
Digər cihaza qoşularkən təhlükəsizliklə bağlı ətraflı məlumatı əldə etmək üçün onun istifadə təlimatını oxuyun. Uyğun olmayan məhsullara qoşulmayın.

**TƏCİLİ YARDIM ZƏNGLƏRİ**
Əmin olun ki, telefon işə salınmışdır və şəbəkədədir. Ekranı təmizləmək və başlanğıc vəziyyətə qayıtmaq üçün son düyməsini tələb olunan qədər basın. Təcili yardım nömrəsini daxil edin və zəng düyməsini basın. Öz yerinizi bildirin. İcazə verilənədək zəngi bitirməyin.

## Sizin cihaz haqqında

Bu təlimatda təsvir edilmiş simsiz cihaz EGSM 900 və GSM 1800 şəbəkələrində istifadə üçün təsdiq edilmişdir. Şəbəkə haqqında daha ətraflı məlumat əldə etmək üçün xidmət provayderinizlə əlaqə saxlayın.

Bu cihazın imkanlarından istifadə edərkən qanunvericiliyə riayət edin və digər şəxslərin səxsi həyat və qanuni hüquqlarına hörmət edin.

**Xəbərdarıq:** Zəngli saat istisna olmaqla bu cihazın bütün imkanlarının istifadəsi üçün telefon işə salınmalıdır. Simsiz cihaz maneə və ya təhlükə törədə biləcəyi yerlərdə telefonu işə salmayın.

## Şəbəkə xidmətləri

Telefonun istifadəsi üçün Sizin simsiz xidmət provayderinə ehtiyacınız var. Bu cihazın imkanlarının əksəriyyəti simsiz şəbəkənin imkanlarından asılıdır. Bu şəbəkə xidmətləri bütün şəbəkələrdə olmaya bilər və ya şəbəkə xidmətlərinin istifadəsi üçün Siz xidmət provayderinizlə müvafiq razılıq əldə etməlisiniz. Sizin xidmət provayderiniz onların istifadəsi üşün Sizə əlavə göstərişlər və tətbiq

ediləcək qiymətlər haqqında məlumat verə bilər. Məyyən şəbəkələrdə Sizin şəbəkə xidmətindən istifadənizə təsir edə biləcək məhdudiyyətlər mövcud ola bilər. Misal üçün, dildən asılı olan simvollar və xidmətlər müəyyən şəbəkələr tərəfindən təmin edilməyə bilər.

Sizin xidmət provayderiniz tələb edə bilər ki, cihazınızda quraşdırılmış müəyyən funksiyalar istifadə edilməsin və aktivləşdirilməsin. Bu halda bu funksiyalar Sizin menyunuzda görünməyəcək. Həmçinin Sizin cihazınız xüsusi konfiqurasiyaya malik ola bilər. Bu konfiqurasiya menyu adlarında, menyu sırasında və nişanlarda dəyişiklikləri əhatə edə bilər. Daha ətraflı məlumat üçün xidmət provayderinizə müraciət edin.

## Yükləyənlər və aksesuarlar

Batareyanı çıxararkən həmişə cihazı söndürün və enerjı qurğusundan ayırın.

Bu cihazda istifadə etməmişdən əvvəl hər hansı enerji qurğusunun model nömrəsini yoxlayın. Bu cihaz AC-2, ACP-7 və ya ACP-12 enerjı qurğularından yükləndikdə istifadə üçün nəzərdə tutlmuşdur.

**Xəbərdarlıq:** Yalnız Nokia tərəfindən təsdiq edilmiş batareyaları, batareya dolduran qurğuları və aksesuarları bu xüsusi modeldə istifadə edin. Hər hansı digər növün istifadəsi təminat və zəmanətlərin qüvvədən düşməsinə səbəb və təhlükəli ola bilər.

Təsdiq edilmiş qurğuların mövcudluğuna dair məlumat əldə etmək üçün dilerinizlə əlaqə saxlayın.

# Ümumi məlumat

## ■ Giriş kodları

- Telefonla təqdim edilmiş təhlükəsizlik kodu, sizin telefonun digər şəxslər tərəfindən istifadə edilməsinin qarşısını alır. Əvvəlcədən quraşdırılmış kod - 12345.
- Sizin SİM kartınızda təchiz edilmiş PIN kodu SİM kartınızın icazəsiz istifadəsinin qarşısını almağa kömək edir.
- Bəzi SİM kartlarla təchiz edilmiş PİN2 kod müəyyən xidmətlərdən istifadə üçün lazımdır.
- PUK və PUK2 kodları SİM kart ilə birgə təmin edilə bilər Əgər siz PİN və ya PİN2 kodunu 3 dəfə səhv daxil etsəniz, sizdən PUK və ya PUK2 kodu tələb olunacaq. Əgər sizdə bu kodlar yoxdursa, yerli xidmət provayderinə müraciət edin.

Telefonunuzun giriş kodları və təhlükəsizlik parametrlərindən istifadəsini qurmaq üçün **Menyu** > *Tənzimləmələr* > *Təhlükəs. seçimləri* seç.

## ■ Bölünən yaddaş

Yaddaş bu cihazdakı aşağıdakı funksiyalar arasında bölünə bilər: *Mesajlar*, *Kontaktlar*, və *Bəstəkar*. Bu funksiyalardan birindən, ya da bir neçəsindən istifadə yaddaşı bölüşən digər funksiyalar üçün yaddaşın həcmini azalda bilər. Məsələn, çoxlu mətn mesajlarının yaddaşda saxlanılması bütün yaddaşı zəbt edə bilər. Siz yaddaşı bölüşən funksiyadan istifadə etmək istədiyiniz zaman, sizin cihaz sizə yaddaşın dolması haqqında mesaj göstərə bilər. Bu halda, davam etməzdən əvvəl, yaddaşı bölüşən funksiyalarda saxlanılan bəzi məlumatları, və ya qeydləri pozun. *Kontaktlar* kimi bəzi funksiyalar başqa funksiyalarla bölüşülən yaddaşdan əlavə, onlar üçün xüsusi ayrılmış müəyyən yaddaş həcminə malik ola bilər.

# 1. Cihazın işə salınması

## ■ Cihaz necə işə salınmalıdır

Telefon istifadə üçün hazır olduqda, hər hansı simvol daxil edilmədikdə sizin telefon gözləmə rejimindədir.




- Şəbəkə səviyyəsi (1)
- Batareyanın doldurulma səviyyəsi (2)
- Seçim düyməsi funksiyaları (3)
- Seçim düymələri (4)
- Keçid düyməsi (5)
- Zəng düyməsi (6)
- Son və işə salmaq/söndürmək düyməsi (7)
- Klaviatura (8)

## ■ SIM kart və batareyanı daxil et

Bütün SIM kartları kiçik uşaqlardan uzaq saxlayın.

SİM kartla bağlı xidmətlərin mövcudluğu və məlumat üçün Sizin SIM kart satıcısı ilə əlaqə saxlayın. Bu satıcı xidmət provayderi, şəbəkə operatoru və digər subyekt ola bilər.

1. Arxa örtüyü açma düyməsini sıxın (1), arxa örtüyü açın, və on kənarlaşdırın (2,3). Barmaq sıxması ilə batareyanı qaldırın və onu kənarlaşdırın (4).
2. Ehtiyyatla SİM kart saxlayanı telefonun barmaq sıxılan yerindən kənarlaşdırın (5). SİM kartı daxil edin, əmin




olun ki, kəsik künc sağ tərəf yuxarıdadır və qızıl kontaktlar üzü aşağıya doğrudurlar.  SİM kart saxlayanı bağlayın (7), və onu yerinə kilitləmək üçün sıxın Batareyanı daxil edin (8, 9).




## Batareyanın doldurulması



1. Yükləyəni akumlyatorun çıxış yerinə qoş.
2. Yükləyəni telefonun aşağısındakı çıxışa qoş. Batareya göstəricisi diyirlənməyə başlayır.
   Əgər *Batareya dolmur* nümayiş etdirilirsə, bir müddət gözləyin, yükləyəni ayırın, sonradan yenidən qoşun, və təkrar edin. Əgər yükləmə yenə uğursuzdursa, satıcınız ilə əlaqə saxlayın.
3. Batareya tam dolduğu zaman sütun pillələrinin hərəkəti dayanır. Yükləmə qurğusunu telefondan və çıxış yerindən ayır.

## ■ Yandırılması və söndürülməsi

Son düyməsin sıxın və bir neçə saniyə üçün saxlayın.



Cihazdan yalniz normal iş vəziyyətində istifadə edin.

Sizin cihazın daxili antenası var.

**Qeyd:** Digər radio ötürücü cihazlarında olduğu kimi telefon işləyərkən zərurət olmadıqda antenaya toxunmayın. Antena ilə kontakt zəngin keyfiyyətinə təsir edir və cihazın daha çox enerji sərf etməklə işləməsinə səbəb ola bilər. Cihazı işlədərkən antenaya toxunmamaq antenanın iş keyfiyyətini və batareyanın istehlak müddətini artırır.

**Qeyd:** Bu bağlayıcıya toxunmaqdan qaçının belə ki, o elektrostatik boşalmalara həssasdır.



## Nümayiş versiyası

Siz öz telefonunuzun müəyyən xüsusiyyətlərinin necə istifadə edilməsinə baxa bilərsiniz.  Əgər SİM kart quraşdırılmayıbsa, seçin **Demo** > *Əsaslar*, *Sonrakı* və *Oyunlar*.

Əgər SİM kart quraşdırılıbsa, seçin **Menyu** > *Əlavə funksiy.* > *Demo* > *Əsaslar* və *Sonrakı*.

## Gözləmə rejimində qısaldılmış klaviatura kombinasiyası

Daxil olmaq üçün yuxarı fırlayın *Zənglər*.

*Kontaktlar* yadda saxlanılmış nömrələr və adlara keçid üçün aşağı fırlayın.

Mesaj yazmaq üçün sola fırlayın.

Nümayiş rejiminə daxil olmaq üçün sağa fırlayın.

Danışan saatı aktiv etmək üçün * sıxın və saxlayın.

Yığılmış nömrələr siyahısına çıxmaq üçün zəng düyməsini bir dəfə sıxın. İstədiyiniz nömrənin və ya adın üzərində durun və həmin nömrəyə zəng vurmaq üçün zəng düyməsini basın.

## ■ Klaviaturanı kilidləyin



Gözləyən rejimdə düymələrin təsadüfən basılmasının qarşısını almaq üçün **Menyu** seçin və tez * sıxın; kilidi açmaq üçün, seçin və tez **Bl. açm.** * sıxın.

Klaviatura blokirovka rejimində olduqda Sizin cihazınızda proqramlaşdırılmış rəsmi qəza telefonlarına zəng edə bilərsiniz.

Təcili yardım nömrəsini daxil edin və zəng düyməsini sıxın. Sizin daxil etdiyiniz təcili yardım nömrəsi ekranda göstərilməyə də bilər.

## ■ Bilək qayışı

Arxa örtüyü kənarlaşdırın, qayışı şəkildə göstərilmiş qaydada daxil edin. Arxa örtüyü dəyişdirin.



# 2. Zəng funksiyaları

## ■ Zəng edin və zəngə cavab verin

Zəng etmək üçün, növbətiləri et:

1. Telefon nömrəsini daxil et, ərazi kododa daxil olmaqla əgər ehtiyyac varsa. Ölkə kodları daxil edilməlidir, əgər zəruridirsə.
2. Zəng üçün zəng düyməsini basın. Zəng edərkən qulaqcıqlarda və ya telefonda səsi artırmaq üçün diyircəyi sağa, azaltmaq üçün isə sola çevirin.

Daxil olan zəngə cavab vermək üçün zəng düyməsini basın. Zəngi cavab vermədən rədd etmək üçün «son» düyməsini basın.

## Səsucaldan

Mikrofon və ya qulaqcıqlar varsa **Səsucal.** və ya **Telefon** istifadə edərək danışa bilərsiniz.

**Xəbərdarlıq:** Reproduktor istifadə edildikdə cihazı qulağınıza yaxın tutmayın, çünki səs dərəcəsi cox yüksək ola bilər.

# 3. Mətn yaz

Siz iki müxtəlif yolla mətni daxil edə bilərsiniz: ənənəvi mətn daxil edilməsi ilə qeyd edilmiş, və ya xəbərdaredici daxil etmə (əlavə edilmiş lüğətlə) ilə qeyd edilmiş.

Ənənəvi mətn əlavə etməni istifadə üçün, istədiyiniz hərf yazılmış düyməni həmin düymə görsənənədək sıxın.

Mətn yazarkən xəbər verən mətn yığım üsulundan istifadə etmək üçün **Seçimlər** > *Lüğət* və arzuedilən dili seçin; onu söndürmək üçün, **Seçimlər** > *Lüğət söndür.* seçin.

Xəbər verən mətn daxil etməni istifadə üçün, növbətini et:

1. İstədiyiniz hərfi daxil edin, hər bir düyməni bir hərf üçün bir dəfə sıxın.
2. Əgər ekrana çıxmış söz sizə lazım olan sözdürsə, **0** düyməsini basın və növbəti sözü yazmağa başlayın.

   Sözü dəyişmək üçün sizin axtardığınız söz ekranda görünməyənə qədər ***** düyməsini təkrarən basın.

   Əgər sözdən sonra ? simvolu peyda olursa sizin söz lüğətdə yoxdur. Bu sözü lüğətə əlavə etmək üçün **Hərfbəhərf** seçin, sözü daxil edin (adi mətn funksiyasını istifadə etməklə) və **OK** seçin.

Ənənəvi və xəbərverən mətn daxil etmələrlə mətn yazmaq üçün məsləhətlər

- Boşluq əlavə etmək istədikdə **0** düyməsini sıxın.
- Mətn daxil etmə üsulunu sürətlə dəyişmək üçün təkrarən **#** düyməsini basın və ekranın yuxarı hissəsindəki indikatora diqqət yetirin.
- Nömrə əlavə etmək üçün lazımi nömrənin düyməsini sıxın və saxlayın.
- Ənənəvi mətn daxil etmədən istifadə edərkən xüsusi işarələrin siyahısını əldə etmək üçün sıxın *****; xəbər verən mətn daxil etmə istifadə edərkən, sıx və saxla *****.

# 4. Menyu funksiyaları

Gözləmə rejimində olarkən **Menyu** menyuların və istədiyiniz menyunu və altmenyunu seçin. Menyunun cari səviyyəsini tərk etmək üçün. Menyunun hazırkı səviyyəsindən çıxmaq üçün **Çıxmaq** və ya **Geriyə** seçin. Gözləmə rejiminə birbaşa qayıtmaq üçün son düyməsini sıxın.

Menyunun bütün funksiyaları və imkanları burada əhatə edilməmişdir.

## ■ Mesajlar



### Mesaj seçimləri

Öz mesaj ayarlarınızı redaktə etmək üçün, seçin **Menyu** > *Mesajlar* > *Mesaj seçimləri*.

Mətn və şəkilli mesajları göndərmək üçün lazım olan telefon nömrəsini yaddaşa vermək üçün *Göndər. rejimi* > *Mesaj mərkəzinin adı* seçin. Siz bu nömrəni servis təminatçınızdan əldə edirsiniz.

*Simvolların dəstəklənməsi* (şəbəkə servisini) seçin mətn mesajlarını göndərərkən *Tamamilə* və ya *Azaldılmış* kodlarından istifadə edilməsini qurmaq üçün.

*Nömr. filtirləşdiril.* - seç. Qeydiyyata alınmış nömrələrin siyahısına baxmaq, ya da onu redaktə etmək üçün.

## Yeni mesaj

Sizin qurğu bir mesaj üçün nəzərdə tutulan simvol limitindən artıq həcmdə mesajların göndərilməsini təmin edir. Uzun mesajlar iki və daha çox mesaj şəklində göndəriləcək. Sizin xidmət provayderiniz müvafiq xərclərin ödənilməsini tələb edə bilər. Vurğu və digər durğu işarələrini istifadə edən simvollar və çin dili kimi müəyyən dillərin simvolları daha çox yer tələb edir və bir mesajda göndərilə biləcək simvolların sayını məhdudlaşdırır.

Təqdim olunan simvolların sayı/çoxhissəli mesajın göndərilən hissəsinin nömrəsi ekranın yuxarı sağ hissəsində göstırilir (misal üçün 917/1).

1. Gözləmə rejimində seç **Menyu** > *Mesajlar* > *Yeni mesaj*.
2. Mesaj yaz.

3. Mesajı göndərmək üçün, seç **Seçimlər** > *Göndərmək*, qəbul edənin telefon nömrəsini daxil et, və seç **OK**.

**Qeyd:** Mesaj göndərəkən, sizin qurğu displeydə göstərə bilər *Mesaj göndərildi*. Bu sözlər təsdiq edir ki, mesaj sizin cihaz tərəfindən cihazınızda proqramlaşdırılmış mesaj mərkəzi nömrəsinə göndərilmişdir. Bu mesajın istənilən təyinatda alındığına dəlalət etmir. Mesaj xidmətləri ilə bağlı daha ətraflı məlumat üçün xidmət provayderinizlə əlaqə saxlayın.

## Mətn mesajını oxuyun

Siz mətn mesajları aldığınız zaman yeni mesajların sayı və işarələri gözləmə rejimində göstərilir.

Seç **Göst.** mesajlara dərhal baxmaq üçün və ya **Çıxmaq** sonradan **Menyu** > *Mesajlar* > *Gədul edilən* - də baxmaq üçün.

## Qaralamalar və Göndərilmiş mesajlar

*Qaralamalar* menyusunda, siz *Msjı saxlatmaq* menyusunda yadda saxladığınız mesajlara baxa bilərsiniz. *Göndərilmiş*

*mesajlar* menyusunda, siz göndərdiyiniz mesajların surətlərinə baxa bilərsiniz.

## Şəkilli mesajlar (şəbəkə servisi)

Siz şəkilli mesajları həm qəbul edə, həm də göndərə bilərsiniz. Alınmış şəkilli mesajlar *Gədul edilən* saxlanılır. Hər şəkilli mesaj bir neçə mətn mesajından ibarətdir. Nəticə olaraq, bir şəkilli mesajı göndərmək bir mətn mesajının göndərilmə qiymətindən baha ola bilər.

**Qeyd:** Şəkilli mesaj funksiyası yalnız şəbəkə operatoru və ya xidmət provayderi tərəfindən dəstəkləndikdə istifadə edilə bilər. Yalnız şəkilli mesaj funksiyasına malik cihazlar şəkilli mesajları qəbul edə və göndərə bilər. Mesajın görünüşü onu qəbul edən cihazdan asılı olaraq dəyişilə bilər.

## Mesajlar silinsin

Bütün oxunmuş və qovluqda olan mesajları silmək üçün, ya **Menyu** > *Mesajlar* > *Mesajlar silinsin* > *Hamısı oxunub* yada arzuolunan qovluğu seçin.

# ■ Kontaktlar



Siz adları və telefon nömrələrini telefonun yaddaşında və ya SİM kartın yaddaşında mühafizə edə bilərsiniz. Daxili telefon kitabçası 200-ə qədər ad yadda saxlamaq imkanına malikdir.

## Ad və telefon nömrəsini axtar

Gözləmə rejimində aşağıya yendirin, və adın ilk hərflərini daxil edin.  İstədiyiniz adın üzərində dayanın.

Siz həmçinin növbəti seçimləri *Kontaktlar* menyusunda istifadə edə bilərsiniz:

*Kontaktı əlavə et*—adları və telefon nömrələrini telefon kitabçasında saxlamaq üçün

Adları və telefon nömrələrini telefon kitabçasından fərdi qaydada və ya hamısını birdən silmək üçün - *Silinsin*

Adları və telefon nömrələrinin hamısını daxili telefon kitabçasından SİM telefon kitabçasına, ya da əksinə, hamısını birdən və ya bir-bir köçürmək üçün - *Kopiya etmək*.

## Əlaqələr üçün ayarlar

**Menyu** > *Kontaktlar* > *Tənzimləmələr* və mümkün seçimlərdən seçin:

*Yaddaşı seç*—Adların və telefon nömrələrinin *Telefon* də və ya *SİM kart* saxalanılmasını seçmək üçün. Siz SIM kartı dəyişdirdikdə avtomatik olaraq, *SİM kart* yaddaş seçiləcəkdir.

Adların və nömrələrin ekranda necə göstəriləcəyini görmək üçün *Kont. görün-mə rej. seçildi* seçin. Siz əlaqənin **Məlum.** -sinə *Kont. görün-mə rej. seçildi* ilə baxdıqda əgər o *Adların siyahısı* və ya *Yalnız ad* qurulubsa, SİM kart yaddaşında saxlanılmış ad və telefon nömrəsi ilə göstəriləcək və telefon yaddaşında saxlanılmış ad və telefon nömrəsi isə ilə göstəriləcəkdir.

*Yaddaşın vəziy.*—Seçin, hər telefon kitabçasında neçə ad və telefon nömrəsinin saxlanıldığını və nə qədər boş yerin qaldığını yoxlamaq üçün

# ■ Zənglər



Telefon buraxılmış, qəbul olunmuş və yığılmış zənglərin sayını, sizin zənglərinizin təqribi

müddətini, göndərilmiş və alınmış mesajların sayını qeyd edir.

Şəbəkə daxilində əgər şəbəkə bu funksiyaları dəstəkləyirsə telefon yanılı olduqda buraxılmış və qəbul edilmiş zəngləri qeyd edir.

## Zəng vaxtları

Sonuncu zəngin, bütün cavab verilmiş zənglərin, bütün yığılmış zənglərin, və ya bütün digər zənglərin davamlılıq müddətinə baxmaq üçün **Menyu** > *Zənglər* > *Zənglərin müddəti* seçin.

Vaxt sayğaclarını əvvəlki vəziyyətə qaytarmaq üçün *Taymerin göstəricisi silinsin* seçin, təhlükəsizlik kodunu daxil edin və **OK** seçin.

**Qeyd:** Xidmət provayderinin zənglər və xidmətlər üçün hesab fakturaları şəbəkənin xüsusiyyətlərindən, hesabların hazırlanması qaydasından və sair faktorlardan asılı olaraq fərqlənə bilər.

# ■ Tənzimləmələr



Bu menyuda siz müxtəlif telefon parametrləri qura bilərsiniz. Bəzi menyu parametrlərini əvvəlki vəziyyətinə qaytarmaq üçün, seçin *Zavod seçimlərini bərpa et*.

## Melodiyaların seçimləri

**Menyu** > *Tənzimləmələr* > *Melodiyaların seçimləri* və mümkün seçimlərdən seçin:

Daxil olan zənglər üçün ton qurmaq üçün - *Melodiya*

*Zəngin ucalığı*— zəng və mesaj qəbuletmə zəngləri üçün səs səviyyəsini qurmaq. Əgər siz *Zəngin ucalığı* ikinci, və ya daha yüksək dərəcəyə qursanız, sizin telefon 1-ci dərəcədən - daxil olan zənglər üçün seçilən dərəcəyə kimi artan səslə çalacaq..

*Vibrasiyalı zəng*— zəng və ya mətn mesajı qəbul etdiyiniz zaman telefonu vibratora qurmaq üçün

*Mesajın siqnalı*— Mətn mesajı aldığınız zaman tonu melodiyaya qurmaq üçün

*Xəbərdrl. siqnalı*—Məsələn, batareyanın gücü sona çatan zaman zəng çalması üçün telefonu səs tonlarına qurmaq üçün

## Ekranın seçimləri

**Menyu** > *Tənzimləmələr* > *Ekranın seçimləri* seçin.

*Mövzular* seçin, istədiyiniz mövzunun üstünə gəlin və mövzunu aktivləşdirmək və ya redaktə etmək üçün **Seçimlər** > *Aktivləşdirilsin* və ya *Dəyişmək* seçin.

Telefonda rəqəmsal və ya klassik saatın və bütün əsas ekran nişanlarının ekran qoruyucusu kimi göstərilməsini təmin etmək üçün - *Ekran qoruyucu saat* seç.

## Rejimlər

Siz zəng tonları, ekran qoruyucusu kimi müəyyən funksiyalar üçün profilləri dəyişdirə bilərsiniz.

**Menyu** > *Tənzimləmələr* > *Rejimlər*, dəyişdirmək istədiyiniz profili və *Seçmək* seçin.

## Saatı quraşdırmaq

**Menyu** > *Tənzimləmələr* > *Saatı quraşdırmaq* seçin.

Seç *Saat*, saatı gizlətmək və göstərmək üçün, vaxtı qurmaq üçün və ya vaxt formatını redaktə etmək üçün.

Əgər batareya telefondan çıxarılmışdırsa, siz vaxt və tarixi yenidən tənzim etməli olacaqsınız.

## Zəngləri tənzimləmək

**Menyu** > *Tənzimləmələr* > *Zəngləri tənzimləmək* və aşağıdakılardan seçin:

Sizə daxil olan zəngləri sizin səsli poçt qutunuza, və ya başqa telefon nömrəsinə yönəltmək üçün *Zənglərin yeni ünvana keçirilməsi* (şəbəkə servisi) seçin. Seçilmiş yönləndirməni qurmaq üçün istədiyiniz yönləndirmə seçimini qur və *Aktivləşdirilsin* seç, söndürmək üçün isə *Ləğv edilsin* seç; seçilmişin aktiv olmasını yoxlamaq üçün *Statusu yoxla* seç; müəyyən yönlənmələrə gecikmələri dəqiqləşdirmək üçün *Gecik. vaxt. seç* seç (bütün yönləmə seçimləri üçün mümkün deyil). Eyni zamanda bir neçə yönəltmə seçimlərinin fəal olması mümkündür. *Bütün səsli zəng. yeni ünva. keçirilsin* fəallaşdırılan zaman,

ekranda gözləmə rejimində görünəcək. Bütün zəng yönəltmələrini söndürmək üçün *Yeni ünv. bütün keçirilm. ləğv edilsin* seçin.

Telefon nömrənizin zəng etdiyiniz şəxsdə görünüb-görünməməsini müəyyənləşdirmək üçün – *Nömrəmi göndərmək*(şəbəkə servisini) seçin.

Telefonunuzun uğursuz zəngdən sonra yenidən zəng etməsi üçün 10 cəhd etməsini təmin etmək üçün - *Avtomatik təkrar zəng* seçin.

Şəbəkəyə siz danışdığınız zaman sizə yeni daxil olan zəng barədə məlumat vermə imkanını vermək üçün – *Gözləyən zəng xidməti* (şəbəkə xidməti) seçin.

## Telefon ayarları

**Menyu** > *Tənzimləmələr* > *Tel. seçimləri* seçin.

Nümayiş mətnlərinin dili üçün *Dil* seç.

## Qiymətləri seçmək

**Qeyd:** Xidmət provayderinin zənglər və xidmətlər üçün hesab fakturaları şəbəkənin

xüsusiyyətlərindən, hesabların hazırlanması qaydasından və sair faktorlardan asılı olaraq fərqlənə bilər.

Seçin **Menyu** > *Tənzimləmələr* > *Qiymətləri seçmək*, və *Ödənilmiş kredit* (şəbəkə xidməti) qabaqcadan ödənilmiş kredit barədə məlumata baxmaq üçün; *Zənglərin taymeri* zəng vaxtı displeyini yandırıb söndürmək üçün; *Müddət cəmi* təqribi zəng müddəti barədə hesabatı yandırıb söndürmək üçün.

**Qeyd:** Enerji bitdikdə və ya kontur və danışmaq limiti tükəndikdə yalnız cihazınıza proqramlaşdırılmış təcili yardım nömrələrinə zəng vurmaq mümkündür.

## Aksessuarların seçilməsi

Seçin **Menyu** > *Tənzimləmələr* > *Aksessuarların seçilməsi* > *Qulaqlıq* və ya *Qulaq apparatı*.

Telefonu daxil olan zəngə avtomatik 5 saniyə ərzində cavab verməsi rejiminə qurmaq üçün *Avtomatik cavab* seçin.

Aksesusar ayarlar menyusu yalnız aksesuarlardan biri telefona qoşulduqdan sonra görsənməyə başlayır.

## Sağ seçim düymə ayarları

Gözləmə rejimində olarkən, siz sürətli düymələr siyahısına daxil olmaq üçün **Get** seçə bilərsiniz. Sürətli düymələri müəyyənləşdirmək, və ya təşkil etmək üçün, seçin **Menyu** > *Tənzimləmələr* > *"Sağ" düym. seçimləri*. *Funks. seçmək* keçin sürətli düymələri funksiyalar seçmək üçün; *Təşkil etmək* keçin sürətli düymələr siyahısında funksiyaların ardıcıllığını təşkil etmək üçün.

## ■ Saat



Gözləmə rejimində, seç **Menyu** > *Saat* > *Siqnal vaxtı* zəng üçün vaxtı müəyyən etmək üçün. Seç *Melodiya* zəngə melodiya seçmək üçün, seç *Təkrar siqnal* zəngin həftənin müəyyən günlərində və ya təkrar olaraq zəng vurması üçün və telefonun vaxtı ucadan deməsi üçün seç *Danışan saat*. Zəngli saat zəng çalan zaman zəngi söndürmək üçün **Stop** seçin, və ya zəngi dayandırıb onun 10 dəqiqədən sonra yenidən çalmasını qurmaq üçün **Təkrar** seçin.

Əgər zəngli saatın qurulduğu vaxtda cihaz söndürübsə, cihaz özü işə düşür və zəng melodiyasını səsləndirməyə başlayır. Əgər siz **Stop** seçsəniz, cihaz sizin onu zənglər

üçün fəallaşdırmaq istəyinizi soruşacaq. Cihazı söndürmək üçün **Xeyir**, və ya zəng etmək və zəngləri qəbul etmək üçün **Bəli** seçin. Simsiz telefonun istifadəsinə maneə və ya təhlükə olduğu zaman **Bəli** seçməyin.

## ■ Yadasalmalar



Qısa bir mətn qeydini xəbərdarlıq zəngi ilə yaddaşa vermək üçün **Menyu** > *Yadasalmalar* > *Yenisini əlavə etmək* seçin. Yadasalma vaxtı yetişəndə, seç **Çıxmaq** zəngi saxlamaq üçün və ya **Keçirilib** telefonun 10 dəqiqədən sonra yenidən zəng çalması üçün.

# ■ Əlavə funksiy.



## Kalkulyator

**Qeyd:** Bu kalkulyator məhdud dəqiqliyə malikdir və sadə hesablamalar üçün nəzərdə tutulmuşdur.

**Menyu** > *Əlavə funksiy.* > *Kalkulyator* seçin.

1. Düymələri sıxın **0** dan **9** dək, rəqəmləri daxil etmək üçün və **#** onluq işarəsini daxil etmək üçün. Daxil edilmiş rəqəmin işarəsini dəyişmək üçün, sıxın*****.
2. +, -, x, or / qeyd etmək üçün yuxarı və aşağı keç.
3. Ehtiyac varsa 1 və 2 mərhələləri təkrarlayın.
4. Nəticə əldə etmək üçün, seçin **Bərabər**.

## Konverter

Siz müxətlif ölçü birimlərini çevirə bilərsiniz.

Gözləmə rejimində, seç **Menyu** > *Əlavə funksiy.* > *Konverter*. Son 5 söhbətinizi əldə etmək üçün, seçin *Son 5 konver.*. Siz həmçinin istifadə etmək üçün qabaqcadan müəyyənləşdirilmiş 6 kateqoriya vahidi seçə bilərsiz:

*Temperatur*, *Çəki*, *Uzunluq*, *Sahə*, *Həcm*, və *Valyuta* seçə bilərsiniz.

Siz öz dəyişikliklərinizi *Konversiya-rım* ilə əlavə edə bilərsiniz

Konversiya edərkən, konversiyadakı vahidlərin yerini dəyişmək üçün yuxarı, və ya aşağı fırlayın.

## Bəstəkar

**Menyu** > *Əlavə funksiy.* > *Bəstəkar* və melodiya seçin. Siz notları sıxaraq öz zəng melodiyanızı yarada bilərsiniz. Məsələn, sıx **4** üçün **f**. Notun uzunluğunu, və ya fasiləni qisaltmaq üçün (-) **8** və uzatmaq (+) üçün **9** sıxın. Fasilə daxil etmək üçün **0** sıxın, oktava qurmaq üçün *****, və notu kəskinləşdirmək üçün **#** seçin (**e** və **b** notları üçün uyğun deyil).




Melodiya tamamlananda **Seçimlər** > *Çalınsın*, *Saxlanılsın*, *Temp*, *Göndərmək*, *Ekranı təmizlə* və ya *Çıxmaq* seçin.

Arxa planda davam edən əlavə sorğu saxlamaq batareya enerjisinə olan tələbatı artırır, və batareyanın ömrünü qısaldır.

## ■ SIM xidmətləri



Sizin SİM kart əldə edə biləcəyiniz əlavə xidmətləri də təqdim edə bilər. Bu menyu yalnız sizin SİM kart tərəfindən dəstəkləndikdə göstərilir. Menyunun adı və məzmunu SİM kartdan asılıdır.

Daha ətraflı məlumat üçün xidmət provayderinizlə əlaqə saxlayın.

# 5. Batareya haqqında məlumat

## ■ Batareyanın doldurulması və boşaldılması

Sizin cihaz təkrar doldurulan batareya ilə təchiz edilmişdir. Yeni batareyanın tam iş keyfiyyətləri batareyanın iki və ya üç tam doldurulma və boşaldılma dövründən sonra əldə edilir. Batareya yüzlərlə dəfə doldurula və boşaldıla bilər lakin vaxt keçdikcə batareya köhnəlir. Danışma və gözləmə rejimlərinin vaxtı normal vaxtdan qısadırsa batareyanı dəyişin. Yalnız Nokia tərəfindən təsdiq edilmiş batareyaları istifadə edin və batareyanızın doldurulması üçün yalnız Nokia tərəfindən təsdiq edilmiş bu telefon üçün nəzərdə tutulmuş batareya dolduran qurğulardan istifadə edin.

Dəyişdirilmiş batareya ilk dəfə telefona qoşulursa, yaxud uzun müddət işlənilməyibsə, onu adapter vasitəsilə elektrik cərəyanına qoşun və sonra ayırın və yenidən enerji toplamaq üçün elektrik cərəyanına qoşun.

Batareyani dolduran qurğu istifadə edilmədikdə, onu elektrik rozetkadan və telefondan ayırın. Tam doldurulmuş

batareyanı dolduran qurğuya birləşmiş saxlamayın, çünki normadan artıq batareyanın doldurulması onun istehlak müddətini azalda bilər. İstifadə edilmədikdə tam doldurulmuş batareya enerjisini vaxt keçdikcə itirir.

Batareya tam boşaldıqda ekranda batareyanın doldurulması indikatorunun görünməsi və ya zəng edilməsi üçün bir neçə dəqiqə tələb oluna bilər.

Batareyanı yalnız müvafiq məqsəd üçün istifadə edin. Heç vaxt zədələnmiş batareya və ya batareyanı dolduran qurğudan istifadə etməyin.

Batareyanın qısaqapanmasına yol verməyin. Təsadüfi qısa qapanma dəmir pul, sıxac və ya qələm kimi metal əşyalar birbaşa batareyanın müsbət (+) və mənfi (-) terminalları ilə əlaqədə olduqda baş verə bilər. (Bu batareyanın üzərində metal zolaqlar kimi görsənir). Bu, misal üçün, ehtiyat batareyasını cibinizdə və ya pul kisəsində gəzdirdikdə baş verə bilər. Terminalların qısaqapanması batareyaya və ya əlaqədə olan əşyaya zərər verə bilər.

Yayda və ya qışda bağlı avtomobil kimi isti və soyuq yerdə saxlanılması batareyanın keyfiyyətinə və istehlak müddətinə təsir edir. Həmişə batareyanı 15°C və 25°C (59°F and 77°F) arasında olan hərarət dərəcəsində saxlamağa çalışın). İsti və soyuq batareya ilə cihaz, hətta

tam doldu olsa belə, müvəqqəti işləyə bilmir. Batareyanın iş keyfiyyəti donma nöqtəsindən aşağıda olan dərəcələrdə xüsusilə məhdud olur.

Partlamaya səbəb ola biləcəyi üçün batareyaları oda atmayın. Batareyalar zədələndikdə də partlamaya səbəb ola bilər. Batareyaları yerli qaydalara müvafiq olaraq məhv edin. Mümkün olduqda batareyanı başqa məqsəd üçün istifadə edin. Ev tullantısı kimi atmayın.

## ■ Nokia batareyasının identifikasiyası qaydaları

Təhlükəsizliyiniz üçün həmişə Nokia batareyalarını istifadə edin. Orijinal Nokia batareyasını aldığınıza əmin olmaq üçün batareyanı səlahiyyətli Nokia dilerindən alın, aşağıdakı addımları tətbiq edərək paketin üzərində Nokia Orijinal Aksesuarlar Loqosunu və holoqram etiketini yoxlayın:

Dörd addımın müvəffəqiyyətli tamamlanması batareyanın orijinallığının tam təsdiqi deyil. Əgər batareyanın orijinal Nokia batareyası olduğuna dair sizdə şübhə varsa, siz onu istifadə etməkdən çəkinməli və yardım üçün yaxınlığınızda olan səlahiyyətli Nokia xidmət şəbəkəsinə və ya dilerinə

müraciət etməlisiniz. Səlahiyyətli Nokia xidmət şəbəkəsi və ya dileri batareyanın orijinallığını yoxlayacaq. Batareyanın orijinallığı təsdiq edilmədikdə onu aldığınız yerə qaytarın.

## Orijinal holoqram

1. Etiketdə olan holoqrama baxarkən siz bir bucaqdan Nokianın birləşdirən əllər simvolunu, digər bucaqdan isə Nokia Orijinal Aksesuarlar loqosunu görməlisiniz.




2. Holoqramı sol tərəfə əydikdə siz hər tərəfdə müvafiq olaraq 1, 2, 3 və 4 nöqtə görməlisiniz.



3. Etiketin qırağını cızın və 20rəqəmli kodu tapın, misal üçün 12345678919876543210. Batareyanı elə çevirin ki nömrələr yuxarı düşsün. 20rəqəmlı kod yuxarı cərgədə olan nömrədən başlayaraq aşağı cərgəyədək oxunur.




4. www.nokia.com/batterycheck ünvanında olan göstərişlərə riayət edərək 20rəqəmli kodun həqiqiliyini təsdiq edin.



Mətn mesajı yaratmaq üçün 20 rəqəmli kodu daxil edin, məsələn: 12345678919876543210, və +44 7786 200276 göndərin.

Mətn mesajı yaratmaq üçün növbətini edin:

- Hindistan istisna olmaqla Asiya, Sakit okean ölkələri üçün: 20 rəqəmli kodu daxil edin, məsələn, 12345678919876543210 və +61 427151515 göndərin.

- Yalnız Hindistan üçün: 20 rəqəmli batareya kodundan sonra “Battery” daxil edin, məsələn, Battery 12345678919876543210, və 5555 göndərin.

Milli və beynəlxalq operator xərcləri əlavə ediləcəkdir.

Siz kodunuzun doğruluğunu təyin edə biləcək mesaj almalısınız.

## Batareyanız orijinal deyilsə?

Əgər siz batareyanın orijinal Nokia batareyası olduğunu etiketdə olan holoqramla təsdiq edə bilmirsinizsə, batareyanı istifadə etməyin. Həmin batareyanı yardım üçün yaxınlığınızda olan Nokia şəbəkə xidmətinə və ya dilerinə aparın. Istehsalçı tərəfindən təsdiq edilməmiş batareyanın istifadəsi təhlükəli ola bilər və sizin cihazınıza və onun aksesuarlarına zərər vura bilər. Həmçinin bu hal cihaza tətbiq edilən hər hansı təsdiq və zəmanətin də qüvvədən düşməsinə səbəb ola bilər.

Orijinal Nokia batareyaları haqqında daha ətraflı məlumat üçün www.nokia.com/battery baş çəkin.

# 6. Aksessuarlar

**Aksesuarlarla bağlı bir neçə praktiki qaydalar.**

- Aksesuarları balaca uşaqların əli çatmadığı yerdə saxlayın.
- Hər hansı aksesuarın güc şnurunu ayırarkən, şnurdan deyil ştepseldən yapışın.
- Avtomobildə quraşdırılmış aksesuarların düzgün quraşdırılmasını və işləməsini mütəmadi olaraq yoxlayın.
- Mürəkkəb avtomobil aksesuarları professional heyət tərəfindən quraşdırılmalıdır.

# Baxım və texniki qulluq

Sizin cihaz əla dizayn və ustalıqla hazırlanmış məhsuldur və onu ehtiyatla istifadə etmək lazımdır. Aşağıdakı təkliflər sizə onun üst örtüyünün qorunmasında yardım edəcək.

- Cihazı quru saxlayın. Çöküntü, rütubət və bütün növ mayelər və ya nəmliklərin tərkibində minerallar ola bilər. Bu minerallar elektron sxemləri körlaya bilər. Cihazınız nəm olmuşdursa, batareyanı çıxarın və onu təkrar yerinə qoyana qədər cihazın tam qurumasını təmin edin.
- Cihazdan tozlu, çirkli yerlərdə istifadə etməyin. Onun hərəkət edən hissələri və elektron komponentləri zədələnə bilər.
- Cihazı isti yerdə saxlamayın. Yüksək hərarət elektron cihazların istehlak müddətini qısalda, batareyanı zədələyə və müəyyən plastikləri əyə və ya əridə bilər.
- Cihazı soyuq yerdə saxlamayın. Cihaz normal hərarətə qayıtdıqda onun içərisində rütubət əmələ gələ və elektron sxemləri zədələyə bilər.
- Cihazı yalnız bu təlimatda göstərilən qaydada açın.

- Cihazı yerə salmayın, taqqıldatmayın və ya silkələməyin. Kobud rəftar daxili montaj platasını və dəqiq mexanika elementlərini qıra bilər.
- Cihazın təmizlənməsi üçün sərt kimyəvi preparatlardan, təmizləyici həllediciləndən və ya güclü tozlardan istifadə etməyin.
- Cihazı rəngləməyin. Rəng hərəkət edən hissələri tıxaya və müvafiq əmələyyatlara mane ola bilər.
- Yalnız təchiz və ya təsdiq edilmiş əvəzedici antenalardan istifadə edin. Qadağan edilmiş antenaların, modifikasiyaların və ya aksessuarların istifadəsi sizin cihazı zədələyə bilər və radio cihazlarının istifadəsini tənzimləyən qaydaların pozulmasına səbəb ola bilər.
- Batareyanı bağlı otaqda doldurun.
- Cihazınızı xidmət şəbəkəsinə göndərdikdə həmişə saxlamaq istədiyiniz məlumatın (əlaqələr və təqvim qeydləri kimi) surətini çıxarın.

Yuxarıda göstərilən bütün təkliflər eyni dərəcədə sizin cihazınıza, batareyaya, batareya doludran qurğuya və ya hər hansı aksessuara şamil edilir. Hər hansı cihaz düzgün işləmədikdə onu təmir üçün yaxınlıqda yerləşən səlahiyyətli xidmət şəbəkəsinə aparın.

# Təhlükəsizliklə bağlı əlavə məlumat

Sizin cihazda və aksessuarlarda xırda hissələr ola bilər. Onları kiçik uşaqların əli çatmadığı yerdə saxlayın.

## ■ İş mühiti

İstənilən ərazidə qüvvədə olan xüsusi qaydalara riayət edin və cihazın istifadəsi qadağan edildiyi yerlərdə və ya istifadə maneçilik və ya təhlükə yarada biləcəyi hallarda cihazı söndürün. Cihazdan yalniz normal iş vəziyyətində istifadə edin. Bu qurğu, normal istifadə zamanı qulağa qoyulduqda, həmçinin bədəndən ən azı 2,2 santimetr (7/8 düym) məsafədə olduqda belə radiotezliklərin təsiri haqda rəhbər göstərişlərin tələblərini ödəmək iqtidarındadır. Bədən üzərində daşınmaq üçün diplomat, kəmər sıxacı və tutcaq istifadə edilirsə bu əşyalarda metal olmamalı və cihaz bədəndən yuxarıdaqeyd edilən məsafədə yerləşdirilməlidir.

Cihazın hissələri maqnitdir. Metal əşyalar qurğuya təsir edə bilər. Kredit kartlarını və digər maqnit daşıyan vasitələri

cihazın yanında qoymayın, çünki onlarda olan məlumat silinə bilər.

## Tibbi cihazlar

Radio ötürücü avadanlığın, o cümlədən simsiz telefonların işlədilməsi qeyri-müvafiq mühafizə edilən tibb cihazlarının funksionalığına təsir edə bilər. Tibb cihazlarının lazımi qaydada RF enerjisindən qorunduğunu müəyyən etmək və istənilən suallarla bağlı həkim və tibb cihazının istehsalçısına müraciət edin. Əgər tibbi avadanlıqlar yerləşən məkanda telefon aparatını söndürmək tövsiyyəsi barədə elan vurulubsa, bu tələbə əməl etmək lazımdır. Xəstəxanalar və tibb müəssisələri xarici RF enerjisinə həssas olan avadanlıqdan istifadə edə bilər.

### Kardiostimulyator

Kardiostimulyatorların istehsalçıları tövsiyyə edir ki, kardiostimulyatora potensial müdaxiləni istisna etmək üçün simsiz telefonla kardiostimulyator arasında ən azı 15.3 sm (6 düym) məsafə saxlanılmalıdır. Bu tövsiyyələr Simsiz Texnologiyalar Tədqiqatı təşkilatının müstəqil araşdırmaları və tövsiyyələri ilə uyğundur. Kardiostimulyator daşıyan şəxslər:

- Həmişə cihazı kardiostimulyatordan 15.3 sm (6 düym) aralı saxlamalıdırlar
- Cihazı döş cibində daşımayın
- Müdaxilə ilə bağlı potensialı minimallaşdırmaq üçün cihazı qulağa kardiostimulyatora əks vəziyyətdə tutmalıdırlar.

Müdaxiləni hiss etdikdə cihazı söndürün və özünüzdən aralayın.

### Qulaq aparatları

Bəzi rəqəmli naqilsiz cihazlar qulaq aparatlarının işlərinə təsir edə bilər. Belə müdaxiləni hiss etdikdə xidmət provayderinizdən məsləhət alın.

## Avtomobillər

RF signalları avtomobillərdə düzgün quraşdırılmamış və ya düzgün mühafizə edilməmiş elektron yanacaq yeridilməsi sistemi, blokirovkaya qarşı elektron tormoz sistemləri, elektron surət tənzimləyən sistemlər, hava kisəsi sistemləri kimi elektron sistemlərə təsir edə bilər. Daha ətraflı məlumat üçün sizin avtomobilin və ya ona əlavə edilmiş avadanlığın istehsalçısı və ya onun dileri ilə əlaqə saxlayın.

Yalnız professional personal cihaza texniki xidmət göstərə bilər və cihazı avtomobildə quraşdıra bilər. Qüsurlu quraşdırılma və ya xidmət təhlükəli ola bilər və bu cihaza tətbiq ediləcək hər hansı zəmanətin qüvvədən düşməsinə səbəb ola bilər. Avtomobilinizdə bütün simsiz cihaz avadanlığının düzgün quraşdırıldığını və işlədiyini mütəmadi olaraq yoxlayın. Tez alışan mayeləri, qazları və partlayıcı maddələri cihazın, onun hissələrinin və aksesuarlarının daşındığı bölmədə saxlamayın və daşımayın. Hava balışı ilə təchiz edilmiş avtomobillərlərlə bağlı unutmayın ki, hava kisələri böyük güclə şişirdilir. Hava balışının olduğu və ya açılacağı ərazidə əşyaları, o cümlədən quraşdırılmış və ya daşınan avadanlığı yerləşdirməyin. Avtomobilin daxilindəsimsiz avadanlığın düzgün quraşdırılmaması və hava kisəsinin şişməsi ciddi xəsarətlə nəticələnə bilər.

Təyyarədə uçuş zamanı cihazın istifadəsi qadağan edilir. Təyyarəyə minməmişdən əvvəl cihazı söndürün. Simsiz telecihazların istifadəsi təyyarənin idarə edilməsi üçün təhlükəli ola bilər, simsiz telefon şəbəkəsini qıra bilər və qeyri-qanuni ola bilər.

## Potensial partlayıcı mühit

Potensial partlayıcı atmosferi olan ərazidə telefonu söndürün və bütün işarələrə və göstərişlərə riayət edin. Potensial partlayıcı atmosferi olan ərazi adətən avtomobilinizin mühərriyinin söndürülməsi tövsiyyə edilən ərazini əhatə edir. Belə ərazilərdə qığılcımlar partlamaya yaxud yanğına səbəb olur və bədən xəsarəti və ya hətta ölümlə nəticələnir. Telefonu xidmət stansiyalarında olan qaz nasosları yanacaq stansiyalarında söndürün.  Yanacaq depolarında, saxlama və paylama məntəqələrində, kimyəvi zavodlarda və ya partlayış əməliyyatları keçirilən ərazilərdə məhdudiyyətlərə riayət edin. Potensial partlayış atmosferi olan ərazilər həmişə olmasa da çox vaxt aşkar qeyd edilirlər. Bu qeydlər gəmilərin aşağı göyərtələrində, kimyəvi preparatları daşıyan və saxlayan avadanlıqda, mayeləşdirilmiş neft qazını (propan və butan kimi) istifadə edən avtomobillərdə və havasında kimyəvi preparatlar və dənəcik, toz və ya metal toz kimi hissəciklər olan ərazilərdə göstərilir.

## Təcili yardım zəngləri

**Mühüm:** Bu cihaz da daxil olmaqla simsiz telefonlar radio siqnalları, simsiz şəbəkələri, daxili əlaqə xəttləri şəbəkələrini və istifadəçi üçün proqramlaşdırılmış funksiyaları istifadə edərək işləyir. Bununla bağlı olaraq hər bir şəraitdə əlaqələrə zəmanət verilə bilməz. Təcili tibbi yardım kimi əhəmiyyətli əlaqələr üçün Siz yalnız simsiz cihaza etibar etməməlisiniz.

### Təcili yardım zəngini etmək üçün:

1. Cihaz iş rejimində olmadıqda onu yandırın. Müvafiq siqnal intensivliyini yoxlayın.
   Müəyyən şəbəkələr qüvvədə olan SİM kartının cihaza düzgün salınmasını tələb edə bilər.
2. Ekranı təmizləmək və cihazı zənglər üçün hazır etmək üçün lazım olan qədər başa çatdırma düyməsini basın.
3. Olduğunuz yerin rəsmi təcili yardım nömrələrini daxil edin. Təcili yardım nömrələri ərazidən asılı olaraq fərqlənir.
4. Zəng düyməsini basın.

Təcili yardım zəngi edərkən tələb olunan məlumatı mümkün qədər dəqiq verin. Hadisə yerində sizin simsiz cihazınız yeganə kommunikasıya vasitəsi ola bilər. İcazə verilənədək zəngi bitirməyin.

## ■ Sertifikatlaşdırma məlumatı (XAD)

BU CİHAZ RADİO DALĞALARINA MƏRUZ QALMA İLƏ BAĞLI BEYNƏLXALQ RƏHBƏR PRİNCİPLƏRİN TƏLƏBLƏRİNƏ CAVAB VERİR.

Sizin mobil telefon radio siqnallarının ötürücüsü və qəbuledicisidir. Bu cihaz beynəlxalq qaydalar tərəfindən tövsiyyə edilmiş radio tezliyinə məruz qalma limitlərini aşmayan cihaz kimi hazırlanmış və istehsal edilmişdir. Bu təlimat müstəqil elmi təşkilat (ICNIRP) tərəfindən tərtib edilib və yaşından, sağlamlığından asılı olmayaraq, bütün şəxslərin müdafiəsini təmin edəcək təhlükəsizlik həddini nəzərə alır.

Mobil cihazlar üçün təsir standartı olaraq Xüsusi Absorbsiya Dərəcəsi (XAD) kimi tanınan ölçü vahidi istifadə edilir. ICNIRP təşkilatının təlimatında göstərilmiş SAR həddi 2.0 vat/kilogramdır (v/kg) 10 qram toxuma ortalamaqla. XAD üçün testlər bütün sınaqdan keçirilmiş tezlik diapazonlarında cihaz ən yüksək təsdiq edilmiş güc

səviyyəsində məlumatı ötürərkən standart iş vəziyyətində keçirilir. İstifadə edilən qurğunun SAR səviyyəsi maksimal dərəcədən aşağı ola bilər, çünki qurğunun ancaq şəbəkə ilə əlaqə yaratmaq üçün enerji verməsi tələb olunur. Bu rəqəm bir sıra faktorun təsiri ilə dəyişir; məsələn sizin şəbəkə baza stansiyasına nə qədər yaxın məsafədə olmağınızdan asılıdr. Bu cihazın qulaqda istifadəsi zamanı sınaqdan keçirilərkən ən yüksək XAD dərəcəsi 0,82 V/kg.

Qurğu hissələrinin və aksessuarlarının istifadəsi SAR dərəcəsinə təsir edə bilər. Milli hesabatçılıq tələblərindən və şəbəkə diapazonundan asılı olaraq XAD dərəcələri fərqlənə bilər. SAR barədə əlavə məlumat mal haqda məlumatın ardınca www.nokia.com. saytında verilə bilər.